Ağacəfər HƏSƏNLİ,
Şəhriyar TƏYYAROĞLU

# Tanrı ucalığında

## Qəhrəman Əlinin 75 yaşına gecikmiş yaşı



**Qəhrəman Əliyev həmişəlik bağlandı Vətən torpağının bir parçasına... Əvvəl təyinatı üzrə işlədi, müəllimlik etdi. Dərhal yüksək peşə hazırlığını, savadını, istedadını ortaya qoydu. Gənc pedaqoq meydan oxumağa başladı. Bir müddət sevib-seçdiyi peşəsindən ayrılmadı, orta məktəbdə dərs dedi. Klassik Azərbaycan və dünya ədəbiyyatının şedevr əsərlərini şagirdlərinə öyrətdi, əlavə məşğələlərdə milli şairlərimizin poeziya nümunələrindən saatlarla əzbərdən şeir söyləməsi adını xeyli məşhurlaşdırdı. Hüseyn Cavidi, Səməd Vurğunu, Mikayıl Müşfiqi, Rəsul Rzanı, Süleyman Rüstəmi, Bəxtiyar Vahabzadəni, Mirvarid Dilbazini, Nigar Rəfibəylini, Əli Kərimi, Söhrab Tahiri, Nəbi Xəzrini, Hüseyn Arifi, Cabir Novruzu, Məmməd Arazı, Nəriman Həsənzadəni ən gənc nəslə sevdirdi, tanıtdırdı. Lerikin pedaqoji mühitində sanki inqilab etdi, hamının rəğbətini qazandı.**

Heç vaxt sözün Tanrı ucalığından enmək istəmədi Qəhrəman müəllim. "Elm dalınca düşən, faydalı olar və ya bədii yazılarını - şeir və hekayələrini, publisistik qeydlərini çap etdirsən, bir neçə kitabdı, mərkəzdə mövqe qazanarsan, şöhrət taparsan" kimi müxtəlif ziyalıların, adlı-sanlı qələm adamlarının təkliflərini qulaq ardına vurdu. Doğulduğu Lerik şəhərində qaldı, heç bircə addım da o yan-bu yana atmadı. Təkcə ali təhsili Bakıda aldı, dərhal da geri qayıtdı: onu dağların min bir gözəllikləri, yaşıl libaslı Talış meşələri, gurum-gurum guruldayan çayların ecazkar nəğmələri, çılpaq yamaclar, civildəyən kəkliklərin nətsuz mahnıları çağırırdı. Həm mütləq mənada Qəhrəman Məhərrəm oğlunu ucalıqlar səsləyirdi, həm də yazıb-yaratmaq üçün boya-başa çatdığı torpaq övladını elə qoynunda görmək istəyirdi...

Qəhrəman Əliyev həmişəlik bağlandı Vətən torpağının bir parçasına... Əvvəl təyinatı üzrə işlədi, müəllimlik etdi. Dərhal yüksək peşə hazırlığını, savadını, istedadını ortaya qoydu. Gənc pedaqoq meydan oxumağa başladı. Bir müddət sevib-seçdiyi peşəsindən ayrılmadı, orta məktəbdə dərs dedi. Klassik Azərbaycan və dünya ədəbiyyatının şedevr əsərlərini şagirdlərinə öyrətdi, əlavə məşğələlərdə milli şairlərimizin poeziya nümunələrindən saatlarla əzbərdən şeir söyləməsi adını xeyli məşhurlaşdırdı. Hüseyn Cavidi, Səməd Vurğunu, Mikayıl Müşfiqi, Rəsul Rzanı, Süleyman Rüstəmi, Bəxtiyar Vahabzadəni, Mirvarid Dilbazini, Nigar Rəfibəylini, Əli Kərimi, Söhrab Tahiri, Nəbi Xəzrini, Hüseyn Arifi, Cabir Novruzu, Məmməd Arazı, Nəriman Həsənzadəni ən gənc nəslə sevdirdi, tanıtdırdı. Lerikin pedaqoji mühitində sanki inqilab etdi, hamının rəğbətini qazandı.

Lakin Qəhrəman müəllim yaradıcı insan idi, Tanrı ona fitri istedad vermişdi. Hələ Bakıda pedaqoji təhsil alarkən, tələbə yoldaşlarından seçilir, müxtəlif səpkili məqalələr, şeirlər yazır, həmin nümunələr arabir respublika qəzetlərinə yol tapırdı. Təbii ki, Lerikdə qələmi kənara qoya bilməzdi. Ancaq ötən 70-80-ci durğunluq illərin çap problemi Qəhrəman Məhərrəmoğlunu da hərdən sındırır, ruhdan salırdı. Ancaq inadı, inamı qalib gəldi, işini dəyişdi, yerli "Bolluq uğrunda" rayon qəzetinə redaktor müavini vəzifəsinə irəli çəkildi. Və beləliklə, qarşısında perspektivlər açıldı, pillə-pillə böyüdü, qələmi bərkidi.

Ötən illərin xatirələrindən söz düşərkən Qəhrəman müəllim birbaşa iti hafizəsini və yaddaşını işə salır: "Kimlər gəlib-getməyib Lerikə? Süleyman Rüstəm, Mirvarid Dilbazi, Nəriman Həsənzadə, Anar, Qabil, Vladimir Qafarov, Oqtay Rza, Məmməd Araz, Əliağa Kürçaylı, Cabir Novruz, Şəkər Aslan, Fikrət Qoca kimi söz sərrafları bu dağlar şəhərində qonaq olublar. Onların rayon camaatı qarşısında, mədəniyyət sarayında və təhsil ocaqlarında keçirdikləri görüşlər həqiqətən unudulmaz xatirədir. Bu kimi ədəbi-bədii axşamlara nəinki qatılır, o tədbirlərin əsas qisminin təşkilatçısı da özüm idim. Çox zaman şair və yazıçıları mən təqdim edir, yaradıcılıqları barədə ətraflı danışırdım. Sözsüz, fəxri qonaqların təkidilə hərdənbir öz şeirlərimdən də əzbər bildiklərimi ayrıca intonasiya ilə söyləyirdim. İndi hərdən dönüb ötən günlərə nəzər salıram, adlarını çəkdiyim ədiblərin əksəriyyəti haqq dünyasına qovuşublar, ancaq əksər şairin Lerikin füsunkar təbiətindən bəhs edən şeiri qalır. Bəli, sənətkar cismən ölür, mənən yaratdıqlarında yaşayır".

Müdrik zirvə yaşını - 75-i başqa yerdə yox, elə sığındığı Lerikdə qarşılayan Qəhrəman Əli özünə ərməğan da hazırlayıb: bu, yeni kitabıdır, bayatılardan və rübailərdən ibarət kitabı. Toplunun adı maraqlıdır: "Özümdən özümə hədiyyəm". Şair-publisist Əli Nəcəfxanlı kitaba yaxşı ön söz yazıb. Bu dolğun portret-oçerkdə dağlar oğlunun obrazı yaradılıb, yaradıcılıq məziyyətlərindən bəhs edilir.

Dörd misralıq, yeddi hecalıq bayatı. Xalq şeirinin bu növünün əsas yaradıcıları analarımız, nənələrimizdir. Onu yaratmaq, ona hikmət-məna donu geyindirmək olduqca çətindir. Yalnız söz sənətinə mükəmməl bələd olan şəxslər bu forma-qəlibə girişməyə qadirdirlər, Qəhrəman Əli ustalıqla öz bayatılarını yaradır və mükəmməl surətdə cinas-qulaq qafiyələrindən istifadə edir:

*Su içdim, sərin oldum,*
*Oxudum, dərin oldum.*
*Aradım, tapdım səni -*
*Ömürlük sənin oldum.*

Əvvəlki iki misrada fikrin dərinliyinə heyrət etməmək mümkün deyil. Əlbəttə, su içib sərinləmək adi haldı, suyu oxuyub dərin olmaq isə tapıntıdı, məzmun əlvanlığıdı. Qafiyələrin düzümü də qeyri-adidi: sərin olmaq, dərin olmaq, sənin olmaq. Həzin lirizm oxucuda əvqat, əhval-ruhiyyə oyadır, duyğuları tarıma çəkir.

Sözsüz ki, istər ictimai motivli bayatı növü olsun, istərsə də lirik məzmunlu. Bunların hamısının mənbəyi, mənsəbi xalqın qan yaddaşıdır, can yanğısıdır.

*Mən aşiqəm yüküm var,*
*Zatım, əslim, köküm var.*
*İçi məhəbbət dolu,*
*Könül adlı mülküm var.*

Və ya anaya həsr olunmuş bu bayatıya diqqət yetirək:

*Analar bezər ağlar,*
*Eyləyib nazər ağlar.*
*Övladı qəmə batsa -*
*Məzarda sezər ağlar.*

Doğrudur ki, bu nadir nümunə dildə-ağızda gəzən başqa bir gözəl bayatını yada salır.

*Analar anar ağlar,*
*Telini sanar ağlar.*
*Dönər ağ göyərçinə,*
*Yollara qonar ağlar.*

Lakin rədiflərdən, qafiyə sistemindən göründüyü kimi, fərq yalnız zahiri əlamətlərdədi, sadəcə, şairin "günahı" bundadır ki, el şeirindən yaradıcı şəkildə, özünəməxsus halda istifadə edib, bu, qəbahət deyil, yaxşı təsirdir.

Qəhrəman Əlinin bayatıları mövzu etibarilə də rəngarəngdir. Şairin "Qarabağ bayatıları" başlığı altında yüzəcən şeiri yeni kitabında yer alıb. Qarabağın gözəçarpan mənzərəli tarixi ərazilərı bu qısa, yığcam poetik parçalarda geninə-boluna, eninə-uzununa tərənnüm olunur. Şuşa şəhəri, Xanın kəndi, Cıdır düzü, İsa bulağı, Kirs dağı, Azıx mağarası və digər toponimlərimiz bu şeirlərə ayrıca ruh bəxş edir. Və nə yaxşı ki, həsrət, nisgil sovuşdu. Ali Baş Komandan - Ordu - Xalq Birliyi böyük zəfərə gətirib çıxartdı. İndi Vaqifli, Natəvanlı, Bülbüllü Şuşa yenə azaddı, erməni vəhşiliyinin bütün talanlarına rəğmən Pənah xanın tikdirdiyi əbədi şəhər təzədən qurulur, inşa edilir, gözəlliyinə qovuşur. İndi daha bu kimi qəmli misralar yalnız bayatıların misralarında qalıb.

*Solmuş bir güldəstəyəm,*
*Qulaqları səsdəyəm.*
*Qarabağ həsrətindən,*
*Saralmış bir xəstəyəm.*

Qəhrəman Əlinin yaradıcılığında ikinci əsas xətt rübai janrıdır. Klassik ənənəyə malik rübaidə parlamaq, adından söz eşitdirmək hər yoldan keçənin işi deyil. Çünki bu dörd misralıq şeir növü olduqca yığcamlıq, bütövlük, tamlıq tələb edir. Şübhəsiz, məna-məzmun, hikmət xəzinəsi qorunmaq şərtilə. Şair ustalıqla ənənəyə sədaqətini nümayiş etdirir, hiss və duyğularını rəvan şeirə çevirməyi bacarır.

*Gecələr sübhədək yata bilmirəm,*
*Qəmimi, qüssəmi ata bilmirəm.*
*Ömrüm qocalığın enişindədir,*
*Əl atıb heç nədən tuta bilmirəm.*

Yaşın gətirdiyi bu cür bədbin notlar müəllifin yaradıcılığında azdır. Məlumdur ki, insanın taleyini yaradan zaman onu daşdan-daşa çırpır, min bir qovğalardan keçirir, formalaşdırır. Bu yaşadığımız dünyada heç nə asan başa gəlmir. Xüsusən də gəlib müdrik yaşın həndəvərinə yetişəndə. Lakin ürək qocalmır - söyləyənlər düz deyirlər. Yoxsa 75 yaşlı qələm adamı belə lirik rübai ərsəyə gətirə bilməzdi:

# SÖZ

*Könlümü alıbdır ala gözlərin,*
*Salıb məni haldan-hala gözlərin.*
*Əzrayıl incidər, alsa canımı,*
*Razıyam canımı ala, gözlərin.*

Qəhrəman Əli torpağa, Vətənə, elobaya bütün ürək telləriylə bağlı sənət adamıdır. Azərbaycan torpağının hər qarışına, kəndinə-kəsəyinə, qəsəbəsinə-şəhərinə, dağına-düzünə, çayına-bulağına, yoluna-cığırına bələdliyi yazılarına ayrıca rəng qatır. "Lerik" mövzusu isə yaradıcılığında mərhələdir. Bu əsrarəngiz, dağlarla əhatəyə alınmış təmiz şəhərin büllur ab-havası, təbiəti ilhamını qanadlandırır. Lerikin keçmişinə, tarixinə dair neçə-neçə publisistik etnoqrafik kitabın müəllifi anadan olduğu torpağı rübaisində belə vəsf edir.

*Dağlarında duman gəzər, çən gəzər,*
*Zirvələri bulud bəzər, qar bəzər.*
*Azdır tayın-bərabərin dünyada,-*
*Sənsən "Lerik" adlı nadir bir əsər.*

Qəhrəman Əli torpağa bağlı adamdır. Baxmayaraq ki, Lerikdə şəhərdə yaşayır, burada şəxsi təsərrüfatını qurub. O, məşhur arıçıdır. Təbiətin bu zərif, incə, güllərin ətriylə dolanan, rayihəsi hesabına yaşayan böcəklərin dilini öyrənib. Bəzən əlində dəftər-qələm elə bayatı və rübailərini də bal arılarının pətəkləri ətrafında kağıza köçürür. Onun arılarla davranışı, onlara həssas münasibəti, səbr və təmkini tamam başqa, orijinal mövzudur. Göz istəyir, tamaşa qılsın. Qəribədir, yad adamları tanıyan, pətəyinin ətrafına gələni dərhal sancan arılar sahibinə toxunmur, xətrinə dəymir, ona mərhəmənə qılıq göstərirlər.

Qəhrəman Əli təvazökar, tox insandır. 20 ildən artıq üzv olduğu təşkilatın - Azərbaycan Yazıçılar Birliyindən heç nə ummur. Necə deyərlər, bəxşişi, hədiyyəni, diqqəti yaxşı, qayğıkeş adamların umuduna buraxıb. Tanrı ucalığında əyləşib, şeirini, məqaləsini yazır, arıların sirrini öyrənir. Ömrünün 75 illiyinə özü şeir hədiyyə edib, həmin poeziya nümunəsindən götürdüyümüz bu sətirlər diqqət çəkir:

*Salam, yetmiş beş yaşım,*
*Salam, ağarmış başım,*
*Salam, əsa yoldaşım!*
*Salam başlayan qışım!..*

*Lerik-Bakı*

**Ədəbiyyat qəzeti.- 19 fevral.- 2022- ci il.- S. 31.**